

# Ürəklə yazılanlar

## (Rəşad Məcidin publisisistikası)

*Loğman Rəşidzadə*

**Cəmiyyətin inkişafı uğrunda mücadilə eləcə həqiqət axtarışı, özünütapma və özünüetiraf naminə azad fikrin ilahi yüksəlişinin təntənəsidir. Həqiqətin dərin kök saldığı qəlblər bəşəriyyətin geniş, işıqlı mənəviyyat adası kimi zaman-zaman insan ağlının, şüurunun, coşqun və təlatümlü ruhunun sığınacağı olub. Həqiqət zamanın xeyrinə bir an belə, susmamalı, dil açıb bizim varlığımızdan, mübarizəmizdən, bəşəri əməllərimizdən, çalın-çarpaz fikirlərimizdən, üzərimizdə bərqərarlaşmış vətəndaşlıq borcundan danışmalıdır. Bu isə insanlığın nəcib həvariləri, azad fikrin və demokratik ruhun apastolları olan ziyalıların, yazıçıların, qələm əhlinin əbədi missiyasından mayalanır.**

### *Həqiqət carçısı*

olan ziyalılar ürək və qəlbin hakim kəsildiyi nəsnələri, ilahi hökmlə möhürlənmiş əməlləri öz isti və munis kölgəsi ilə qoruyub saxlamaqda daim baqidir. Belə ziyalılarımızdan biri istedadlı qələm sahibi, şair, nasir, publisist, mühərrir, bir sözlə, "bütün yönləri ilə yaradıcı" (Akademik İ.Həbibbəyli) insan Rəşad Məciddir. Bəzən biz istedad sözünü fərqinə varmadan geninə-boluna işlədir, səxavətlə demək olar ki, hamıya ünvanlayırıq. İstedad dərin məzmunlu, poetik ruhlu, intellektual siqlətli yazılar ərsəyə gətirməklə yanaşı, həm də zəhmətin qaynarında bişmiş düşünən adam, azad fikirlilik, zəmanənin naqislikləri ilə barışmazlıq, sərt ictimai tənqidçi, nəcib, səmimi maarifçi, coşqun ruhlu vətəndaşdır. İstedad - insanları birləşdirmək, ideyalar yaratmaq (ideallara xidmət etmək), sosial ziddiyyətləri aradan götürmək, siyasi çaxnaşmalar zamanı təmkin vələyaqətini itirməməkdir. Bizim əziz dostumuz, müqtədir şair, nasir, publisist, demokratik ruhlu redaktor, maarifçi, islahatçı ədəbiyyatşünas, azad düşüncəli insan Rəşad Məcid belə istedad sahiblərindəndir.

### *Rəşad Məcidin şeirləri,*

nəsr əsərləri və həm də publisistikası barədə çağdaş ədəbi sferada geniş söhbət açılıb, onun duyğu və düşüncələri hər üç janrın imkanları işığında geniş şərh edilib. Bu qələm məhsullarında doğrudan da Rəşadın həm istedadı, vətəndaş mövqeyi, humanizmi, azadlıq sevdası, torpaq nigarançılıqları, Qarabağ dərdi və həsrəti bütün çalarlarıyla görünür, həm də özü, şəxsiyyəti, ziyalı obrazı, ipək kimi yumşaq və ipək kimi qayim xarakteri, mübariz, coşqun ruhu boy göstərir. Tələb və zövqlərin şıltaqlaşdığı bir zamanda qəzetçiliklə məşğul olmaq, redaktorluq etmək, jurnalistikada yeni məktəb yaratmaq həddinə qədər gəlib çıxmaq hünər və istedadın göstəricisidir. Doğrudan da Rəşad Məcid müstəqillik dövrü jurnalistikamızın cəsarətli və demokratik ruhlu redaktorlarından biri kimi "525-ci qəzet"in ətrafında bacarıqlı, istedadlı, qəlbi vətəndaşlıq duyğularıyla döyünən böyük bir jurnalistlər (publisistlər) ordusu toplaya bildi. Bu, onun jurnalistikamız qarşısında, ümumiyyətlə, ədəbi düşüncənin, müstəqil fikrin və vətəndaş mövqeyinin inkişafı naminə atdığı ən böyük addımdır. O, jurnalistikamızın nəzəri və təcrübi ənənələrini də öz simasında məharətlə birləşdirə bilən yaradıcı ziyalı, ictimai xadimdir. R.Məcid redaktor kimi özünü bacarıqlı təşkilatçı kimi təsdiq etməklə yanaşı, yazdığı dəyərli məqalələr, resenziyalar, rəylər, verdiyi müsahibələrilə də özünü təcrübəli, səriştəli, cəsarətli və istedadlı publisist, qəzetçi və genişprofilli jurnalist kimi də sübut etmişdir.

### *Başqa sözlə:*

**"Heç şübhəsiz ki, Rəşad Məcid gördüyü bütün işlərdə səriştəli, bacarıqlı və peşəkardır. Amma elə bunları yaza-yaza içimdəki ikinci "mən" deyir ki, cəmiyyətdə nə qədər peşəkarlar var, adamlar onlar haqda nəinki yazmır, hətta, yüz metrliyindən qaçırlar. Görünür, sadəcə peşəkarlıq və bacarıq, hətta istedadın özü də yetərli deyil. Bütün bunlar uzağı yaxşı əsər yazmağa, populyar qəzet buraxmağa kömək edər, amma Rəşad Məcid olmağa yox! Bir çox sirlərin cəmidi, Rəşad Məcid! (Pərvin "Hamının və heç kimin").**

Rəşad Məcid uzun illərdir ki, şeir, hekayə və s. ədəbi yaradıcılıqla yanaşı publisist kimi də fəaliyyət göstərmiş, bu sahədə özünü dərin bilikli, erudisiyalı, intellektual bir jurnalist, geniş analitik təfəkkürlü publisist kimi də təqdim etmişdir.

"Rəşad Məcid müstəqillik dövrü Azərbaycan publisistikasının əsas yaradıcılarından və görkəmli nümayəndələrindən biridir" (Akademik İsa Həbibbəyli, "Bütün yönləri ilə yaradıcı Rəşad Məcid").

### *Onun publisistikası,*

təbii ki, real həyatdan nəşət tapır, konkret hadisə və əhvalatlardan qidalanır. Və bəzən də xəyal pərvazlarında ömrün və taleyin o taylarına, yaddaşın məhrəm ünvanlarına qanadlanır. Bu da onun publisistikasına şirin bir romantika qatır. O, qələmə aldığı adi məişət hadisələrindən tutmuş geniş rezonanslı ictimai-siyasi problemlərə qədər öz müdaxiləsi, rəy içində rəy formalaşdırması, münasibət içində münasibət yaratması, mövqe içində mövqe nümayiş etdirməsilə daha çox yadda qalır. Belədə o, əsl analitik kimi qələmə aldığı hadisələrə doğru-düzgün qiymət verir, oxucunu öz mövqeyinə, fikrinə, tendensiyasına inandırıb tabe edə bilir.

Onun qələmə aldığı publisistik nümunələr, əsasən, "Dəlicəsinə" adlı kitabda toplanıb. Onun "Roman" adlandırdığı lirik-epik düşüncələri nə dərəcədə lirik-romantik, hissi-emosional ovqat yaradırsa, "Dəlicəsinə" toplusu da bir o qədər ciddiliyi, ləngərliyi, dərinliyi, akademizmiylə fərqlənir. Lakin burada toplanan məqalələr də poetik ruhdan, romantik ovqatdan, metafizik əhval-ruhiyyədən xali deyil. R.Məcidin publisist qələmi həyatımızın bütün tərəflərinə nüfuz edir, bəzən ictimai nəzarətdən kənar qalan, hətta taleyüklü məsələlərin, biganəlik caynağında vurnuxan və heç kimə lazım deyilmiş kimi unudulan problemlərin üzərinə də işıq salmış olur.



### *Onun publisistik əsərlər toplusu*

"Dəlicəsinə" kitabının strukturu, ideya-məzmun bölgüsü də bu mənada publisistin məqsəd və məramının açılımına, əyanilləşməsinə kifayət qədər kömək edir. Kitabın içindəkilər belə qruplaşdırılıb: "Yaşadıqlarım", "Gördüklərim", "Dediklərim", "Tanıdıqlarım".

Bu bölümlər, ümumiyyətlə, topluya struktur etibarilə bədii-məntiqi aydınlıq verir və oxucunu qabaqcadan mütaliəyə hazırlayır. Belə bir aydınlıq, şüurlu görüntü, oxucu ilə açıq dialoq, ictimai-siyasi hadisələrin yetərincə dəqiq təqdimatı, müəllif fikrinin duyğu və düşüncələrinin səmimi etirafı, ümumiyyətlə Rəşad Məcid yaradıcılığı üçün səciyyəvi cəhətlərdir. "İctimai-siyasi və ədəbi-elmi mühiti tam olaraq birlikdə görməyi və dəyərləndirməyi bacarmaq, daim irəliyə doğru dərkolunmaz obyektiv baxış Rəşad Məcidin jurnalistika fəaliyyətinin və publisistikasının mahiyyətini təşkil edir" (Akademik İ.Həbibbəyli, "Bütün yönləri ilə yaradıcı Rəşad Məcid").

Rəşad Məcidin həyatımızın müxtəlif sahələrinə nüfuz edən publisistik fəaliyyətini şərti də olsa, bir neçə qrupa ayırmaq olar.

**1.** İctimai-sosial motivli məqalələri. Rəşad bu mənada həssas müşahidəçi, dərin analitik təhlil istedadına malik jurnalistdir. O, dövrümüzün, içində yaşadığımız cəmiyyətin səciyyəsini bütün təfərrüatı ilə şərh edə bilir, insanlar arasında qarşılıqlı münasibətlərin məntiqinə varır, onların əqli-intellektual, ruhi çabalarını ən incə ştrixlərlə əks etdirir və həssas sənətkar nöqteyi-nəzərindən bu müsbət, yaxud naqis olaylara sərrast ziyalı-sənətkar mövqeyi sərgiləyərək dəqiq qiymət verə bilir.

**2.** Ədəbi-bədii oçerkləri - esselər. Onun bədii publisistikasının əsasını təşkil edən bu oçerklər və esselər publisistik sərhədləri ötərək daha çox bədii düşüncə, lirik ovqat məhsulları kimi təzahür edir. Təbii ki, publisistika yaradıcılığında lirik təəssüratlar və bədii düşüncənin üfüqləri kifayət qədər geniş olur.

### *Bu çalarlar*

da publisistik əhval-ruhiyyəni bədii obrazlılıqla zənginləşdirir, ona yeni təravət verir, müəllif-oxucu ünsiyyətini doğmalaşdırır. Rəşad Məcidin bədii publisistikasında isə bədiilik daha öndədir, daha çox dominantlıq təşkil edir. Onun publisistik məqalələri bitkin bir hekayə, yaxud lirik bir lövhədir. Xüsusən, esseləri. Bu əsərlərin strukturunda, bədii arxitektonikasında və poetik estetikasında duyan bir insanın qəlb çırpıntılarını hiss edirik, narahat bir vətəndaşın zahiri forma və görüntülərdən uzaq ictimai düşüncələrlə dolu qayğılarını biz də onunla birgə yaşayırıq. Onun cümlələrində, sözlərində, ifadə və ibarələrində bəlağət, təmtəraq, saxta şüarçılıq yoxdur, dərin hissiyyat, zərif duyum və universal estetika yaşayır. O, insanda formalaşan və onu zənginləşdirən mənəvi-əxlaqi dəyərləri təkmil və kamil görməyə çalışır, bədii oçerklərində, esselərində bunun nümunələrini yaradıb yüksək qiymətləndirir. O, həm də ona görə uğura nail olur ki, çox yaxından tanıdığı, sevdiyi insanları ədəbi tədqiqatın mövzusuna çevirir.

**3.** Ən maraqlı təəssüratlar Rəşad Məcidin səfər qeydlərinin qatlarında yaşayır. O, həm bir redaktor, yaradıcı şəxs, ictimai-dövlət adamı kimi, həm də Azərbaycan Yazıçılar Birliyinin katibi kimi tez-tez müxtəlif səfərlərdə olur, ayrı-ayrı tədbirlərə dəvətlərdə bulunur. Çox yaxşı ki, bu səfərlərdən Rəşad əliboş qayıtmır, geri dönəndə vağam sünbül kimi dönür, qələmə aldığı oçerklərlə, publisistik qeydlərlə öz oxucularına maraqlı səfər təəssüratları təqdim edir, yeni məlumatlar verir və bələliklə də bizim ruhumuzu və qəlbimizi təravətləndirməklə yanaşı informasiya bankımızı da zənginləşdirir. Bir məsələni də mütləq qeyd etmək lazımdır ki, Rəşad harada olursa-olsun, hansı ölkəyə, hansı şəhərə gedirsə-getsin - istər İstanbulda, Romada, Strasburqda, istərsə də Berlində fərqi yoxdur, Qarabağ ağrısını da özüylə aparır, hər yerdən Şuşa görünür, Laçın boylanır, Ağdam baxır ona... İşgüzar səfərlərdə, bu səfərlərin təəssüratı kimi qələmə alınan publisistik qeydlərdə də Qarabağ dərdi və problemi əsas prioritetdir. Onun aydın vətəndaş mövqeyinin mayasında, məhz bu yaşantılar, duyğu və düşüncələr dayanır.

**4.** Rəşad Məcid dövrün siyasi dəyişmələrinə, ölkədə və dünyada baş verən siyasi təbəddülatlara, beynəlxalq böhran paradiqmalarına və bununla yanaşı tarixi keçmişimizə son dərəcə ziyalı həssaslığı, ayıq yazıçı fəhmiylə daim operativ reaksiya verir.

### *Siyasi hadisələrə münasibət bir*

jurnalist-analitik və aktiv ziyalı-yazıçı kimi Rəşad Məcid üçün taleyüklü məsələdir, ölkənin, dövlətin mövcud, mürəkkəb və qarışıq dövrdə müdafiəsi məsələsidir. Onun üçün, siyasi duruma öz qələmi ilə fəal müdaxilə, əslində fəal vətəndaş mövqeyi ortaya qoymaqdır. O, bütün bunları - istər qələmə aldığı zarisovkalarında, verdiyi irili-xırdalı müsahibələrində, siyasi təhlillərində, istərsə də rəsmi məclislərdə, forumlarda, konfranslarda etdiyi çıxışlarda açıq ziyalı mövqeyindən bəyan edir. O, bəziləri kimi buqələmun cildinə girmir, siyasi, ictimai və ədəbi mövqeyini heç vaxt gizlətmir. Bir çoxları siyasəti riyakarlıq, saxtakarlıq, oyun adlandırır. (Yazılı mətnlərdə, filosofların, siyasi xadimlərin çıxışlarında da eyni kontekstlə rastlaşırıq). Amma, görünür hər şeydə olduğu kimi, eləcə siyasətin özü də səmimiyyətə daha çox ehtiyac duyur. Rəşad Məcidin səmimi, aydın həyat və fəaliyyəti, ictimai-siyasi, ədəbi mövqeyi bu mənada da nümunə ola bilər.

**5.** Ədəbi-bədii tənqid və ədəbiyyatşünaslıq mövqeyindən qələmə alınan məqalələri də Rəşad Məcidin bir başqa yöndən ictimai-ədəbi məzmununu ortaya qoyur, onun bu istiqamətdə fəaliyyətinə yeni işıq salmış olur. Ədəbi-publisistik fəaliyyətinin bu növü onu "yazıçı tənqidi"nin tanınmış nümayəndəsi kimi səciyyələndirməyə imkan verir. Belə yazılarda onun qrafomonluğa, ədəbi spekulyasiyaya dözməyən amansız tənqidçi mövqeyilə yanaşı, xeyirxah, humanist, qayğıkeş obrazı da canlanır.

Xüsusən, gənc yazarlar haqqındakı qeydlərində, onların yaradıcılığı barədə yazdığı ressenziya və rəylərdə bu ürəyiyumşaqlıq və canyananlıq daha çox boy göstərir.

**O, bu mövqedə amansız tənqidçi deyil. O, tərif də etmir. O, araşdırır, təhlil edir, daha çox ruhlandırır, gələcəyə, uğura səsləyir, yönəldir və yönləndirir. Bir sözlə, əsl dost münasibəti, humanizm sərgiləyir.**

**(ardı növbəti sayımızda)**